# İKİDİLLİLİK /BİLİNGUALİZM

Gündəlik həyatda iki dili istifadə edərək ünsiyyət qurma bacarığına iki dillilik deyilir. Bəzi insanlar narahat olurlar ki, iki dillilik (bilingualizm) uşaqları akademik uğursuzluğa, dil gecikməsinə aparır, amma tədqiqatlar bu fikri təsdiqləmir. Uşaq beyini iki dili də eyni zamanda öyrənmə gücünə malikdir.

İki dilli uşaqların dil inkişafı hər dildə eşitdiyi nitqin kəmiyyət və keyfiyyəti ilə birbaşa əlaqəlidir, qarşılıqlı əlaqədə eşidilən körpə yönümlü nitqin miqdarı birbaşa o dilin böyüməsinə təsir göstərir.

Məsələn, çox yüksək keyfiyyətdə ingilis dilini eşitmək ingilis dilinin inkişafına xidmət edər, amma kifayət qədər ispanca eşitmə olmasa ispan dili inkişaf etməz.

Uşaqlar axıcı, səlis nitqi sosial əlaqədə danışıq ilə daha yaxşı öyrənirlər. İki dil öyrənmək üçün erkən yaşlar (2-3 yaş) daha əlverişlidir.



**UŞAQLAR DÜZGÜN ÜNSİYYƏT GÖRƏRLƏRSƏ, HƏR İKİ DİLİ EYNİ SƏVİYYƏDƏ TƏKMİLLƏŞDİRMƏK BACARIĞINA SAHİBLƏNƏRLƏR**

## İKİDİLLİ AİLƏLƏR

Fərqli millətlərin nümayəndələrinin evliliyi nəticəsində, ya da başqa bir ölkəyə köç edildiyində uşaq doğulduğu andan etibarən iki dilin təsirinə məruz qalır, həmçinin bu dilləri eyni zamanda öyrənməsi lazım gəlir. Əslində belə proses uşaqlar üçün çox da çətin deyildir. Bir sözlə, uşaqlar düzgün ünsiyyət görərlərsə, hər iki dili eyni səviyyədə təkmilləşdirmək bacarığına sahiblənərlər. Sosial bacarıqlar və özgüvən etibarı ilə iki dilli olmaq üçüncü dili öyrənməyə daha çox zəmin yarada bilər.

## İKİDİLLİ UŞAQ DİLLƏRİ QARIŞDIRIR?

Xeyr, eyni vaxtda iki dil öyrənən azyaşlı uşaqların dilləri qarışdırmasına dair bir sübut yoxdur, uşaqlar qarşılıqlı ünsiyyətdə olduğu adamın dilinə adaptasiya olacaq və hər iki dilə fərq qoymağı bacaracaqlar.

Ciddi tədqiqatlar göstərir ki, iki dilli uşaqlar danışıq dillərini iki yaşından daha əvvəl ayırd edirlər. Bəzən həm valideynlər, həm də uşaqların eyni cümlə içində dilləri qarışdırması mümkündür. Bu, normal bir haldır, nitq pozuntusu sayılmaz.

## İKİDİLLİLİK NİTQ GECİKMƏSİNƏ SƏBƏB OLA BİLƏRMİ?

Xeyr, iki dillilik nitq gecikməsinə və ya ləngiməsinə səbəb deyil. Araşdırmalar göstərir ki, hər iki dil diqqətə alındığında (yüksək səviyyəli qarşılıqlı canlı ünsiyyət) iki dilli uşaqlar öz həmyaşıdlarından geri qalmır.

Danışığı gecikmiş iki dilli olan bir uşaq (məsələn, ilk sözü 18 aya qədər demədiyi halda) fiziki və psixoloji inkişaf üçün müayinəyə götürülməlidir.

Televiziya, internet videoları 2.5 və ya 3 yaşdan kiçik tək dilli uşaqların ikinci dili öyrənməsinə kömək etmir. Körpələr və azyaşlı uşaqlar böyükləri dinləyərək, onlarla qarşılıqlı ünsiyyətdə yeni sözlər öyrənir, dil inkişaf etməyə başlayır. TV və videolar deyil, insanlar və gerçək ünsiyyət uşaqların inkişafına kömək edir.

## İKİ DİLİN FAYDALARI

Bilingualizm səs-simvol fərqliliyi, qrammatika biliyi və lüğət ehtiyatı vasitəsi ilə uşaqların dil və ibtidai savad inkişafına yardım göstərir. Yeni bir dil öyrənmək beyinin funksionallığını artırır, zehni rahatlığı və yaradıcılığı təmin edir. İki dilli fərdlər fərqli adət-ənənələri, ideyaları, müxtəlif mədəniyyətlərin incəliklərini görürlər, gələcəyə doğru daha çox təcrübə qazanırlar. İki dilli olmaq özünü müsbət cəhətdən səyahət zamanı da göstərir, uşağın dil problemi yoxdur, birbaşa yerli insanlarla ünsiyyət qurur və bir çox yeni informasiyalar əldə edir. Beləliklə səyahət uşaqlar üçün daha əyləncəli və maraqlı olur. Valideynlər, ailə üzvləri, uşaq dayələri iki dil öyrənmə mühitini dəstəkləməli, hər iki dilə dəyər verməlidirlər. İki dilli olmağın uşaqlar üçün elmi, sosial, praktik faydaları vardır.

**Cavid Musa**
**Rəsad**